AZƏRBAYCAN TURİZM VƏ MENECMENT UNİVERSİTETİ

Beynəlmiləşmə siyasəti

(2023-2026-CI İLLƏR ÜZRƏ)



MÜNDƏRİCAT

01 Ümumi müddəalar

02 BƏŞ haqqında məlumat, missiya və vizyon

03 SWOT təhlil

04 Əsas Fəaliyyət İstiqamətləri və Strateji Hədəflər

05 Beynəlmiləlləşmə siyasətinin icrası üçün ayrılmış resurslar

06 Beynəlmiləlləşmə siyasətinin icrasına ehtiyacəsaslı təkmilləşdirmə və dövrü yenilənmə

07 Beynəlmiləlləşmə siyasətinin icrasına monitorinq və nəticələrin qiymətləndirilməsi

08 Yekun müddəalar

1. Ümumi müddəalar

1.1 Beynəlmiləlləşmə siyasəti sənədi Azərbaycan Turizm və Menecment Universitetinin (bundan sonra - ATMU) 2022-2026-cı illər üzrə Strategiyasına uyğun olaraq Beynəlxalq Əlaqələr şöbəsi (bundan sonra - Şöbə) tərəfindən hazırlanmış və ATMU-nun təhsil, tədqiqat və digər fəaliyyətlər üzrə beynəlxalq əməkdaşlıqlarının təşkilini və inkişaf etdirilməsini tənzimləyir.

1.2 Beynəlmiləlləşmə siyasəti sənədi elm və təhsil istiqaməti üzrə qanunvericiliyə, müvafiq qanunlara və normativ hüquqi aktlara, həmçinin Strategiyada qeyd olunan normativlərə, akademik və inzibati heyətin, tələbələrin bakalavr və magistratura səviyyəsi üzrə mübadilə proqramlarında iştirakı və əcnəbi və vətəndaşlığı olmayan şəxslərin Universitetə qəbul qaydalarına əsaslanır.

2. BƏŞ haqqında məlumat, missiya və vizyon

2.1 ATMU-nun Beynəlxalq Əlaqələr Şöbəsi 2006-cı ilin avqust ayından fəaliyyət göstərir. Şöbənin əsas fəaliyyət istiqamətlərini özündə əks etdirən Əsasnamə 2008–ci ildə hazlanmış və 2018-ci ilin sentyabr ayında yenilənmişdir. Şöbənin fəaliyyəti illik hazırlanan İş planı üzrə təşkil olunur və icra edilir.

2.2 Şöbənin missiyası – dünyada turizm və menecment sahəsində tədris aparan ali təhsil müəssisələri və turizm sənayesində fəaliyyət göstərən beynəlxalq təşkilatlar ilə əlaqələr quraraq ATMU-da həyata keçirilən tədris və araşdırma prosesinin keyfiyyət və kəmiyyət baxımından inkişafına dəstək verməkdir.

2.3 Şöbənin vizyonu – qlobal təhsil dəyərləri nəzərə alınmaqla akademik, inzibati heyət və təhsil alanların beynəlxalq elm və təhsil dünyasına çıxışını təmin etməklə ATMU-nun beynəlxalq əlaqələr istiqamətində fəaliyyətini davamlılıq prinsipi əsasında inkişaf etdirməkdir.

3. SWOT Təhlil

3.1. Üstünlüklər

- Həyata keçirilən beynəlxalq əməkdaşlıq layihələrində davamlılıq;
- Xarici universitetlərlə ikitərəfli müqavilələr və dərin əməkdaşlıq;
- Şöbə əməkdaşlarının peşəkar, təcrübəli gənclərdən ibarət olması;
- Təşəbbüslərin həyata keçirilməsinə təşkilatdaxili dəstək;
- Beynəlxalq təşkilatlar, eləcə dəbeynəlxalq təşkilatların Azərbaycanda fəaliyyət göstərən nümayəndəlikləri ilə səmərəli və davamlı əməkdaşlıq;
- Ölkə daxili və beynəlxalq turizm sektoru ilə yaxşı əlaqələrin mövcudluğu;
- Avstriya – Azərbaycan Turizm Proqramı (AATP);
- Gənc universitet və gənc resurslar;
- Dəyişikliyə açıq olmaq;
- Qlobal tərəfdaşlıqların inkişaf etdirilməsi üçün müxtəlif imkanların mövcudluğu;
- "Turizm işinin təşkili" ixtisas proqramı üzrə Ümumdünya Turizm Təşkilatının "UNWTO. TedQual" beynəlxalq keyfiyyət sertifikatını almış olmaq.

3.2. Zəif cəhətlər

- İnfrastrukturun məhdudluluğu;
- Turizm ixtisasının daha çox ön plana çıxması, digər sahələrin bir qədər arxa planda qalması;
- İnzibati və akademik heyətin xarici dil bacarıqlarının yetərincə olmaması;
- Şöbənin əməkdaş sayının məhdudluğu;
- İnglis dilində tədris apara biləcək müəllim heyətinin az olması;
- İngilis dilində kifayət qədər tədris proqramlarının olmaması;
- Universitetin beynəlxalq arenada tanınırlıq səviyyəsinin aşağı olması;
- Tələbələrin beynəlxalq təhsil proqramlarına marağının az olması (xüsusilə, Covid 19-dan sonra).

3.3. İmkanlar

- Pandemiyadan sonra informasiya texnologiyalarının imkanlarından beynəlxalq əlaqələrin formalaşdırılmasında istifadənin daha geniş yayılması (online görüşlər və s.);
- TEDQUAL Sertifikatına malik olan bir ATM kimi digər beynəlxalq nüfuza malik turizm təhsili verən ATM-lərlə mübadilə və təlimlərlə, araşdırmalarla bağlı əməkdaşlıq qurmaq imkanı;
- Türkdilli dövlətlərlə ikili və çoxtərəfli təhsil proqramlarının hazırlanması və imzalanması imkanı;
- Beynəlxalq mübadilə proqramları, təlimlər, layihələr və araşdırma istiqamətli əməkdaşlıqların qurulması;
- Qeyri-neft sektorunun inkişafı baxımından turizm sənayesinin öz önəmini ölkə iqtisadiyyatı üçün artırması və bu istiqamətdə turizm təhsilinin beynəlmiləşməyə duyduğu ehtiyacın artması;

3.4. Təhdidlər

- Universitetin profili əsas götürülərək beynəlxalq səviyyədə daha çox məhdud sayda akademik əməkdaşlıqlar üçün açıq olması;
- Digər yerli universitetlərin oxşar proqramlar təklif etməsi yaxud daha güclü qlobal nüfuza malik olması fonunda rəqabət imkanlarının məhdudluğu;
- Beynəlxalq mübadilə proqramlarında bəzi tərəfdaş universitetlər tərəfindən uzunmüddətli vizanın istənilməsi.

4. Əsas Fəaliyyət İstiqamətləri və Strateji Hədəflər

4.1 Ümumi hədəflər

4.1.1 ATMU-nun beynəlmiləşməsinin tərəfdaşlıqlarda səmərəlilik və davamlılıq prinsipləri əsasında aparılması;

4.1.2 Beynəlxalq əlaqələrin təşkili və gücləndirilməsinin ATMU-nun ümumi hədəf və məqsədləri çərçivəsində müəyyənləşdirilməsi.

4.2 Xüsusi hədəflər

4.2.1 İkili diplom layihələrinin artırılması;

- Bakalavr və magistratura pilləsi üzrə nəzərdə tutulması;
- Bütün mövcud fakültələri əhatə etməsi;
- ATMU- dakı mövcud ixtisaslar nəzərə alınaraq Avropa və Türkiyə istiqamətli olması;
- Davamlılığın qorunması;
- Avstriya-Azərbaycan Turizm Proqramı (bundan sonra - AATP) üzrə gücləndirilməsi;

Bu inkişaf istiqaməti üzrə fəaliyyətin təşkili və təmini

- Müxtəlif təhsil pillələri üzrə müvafiq ixtisasların müəyyənləşdirilməsi
- Seçilmiş ixtisaslar üzrə tərəfdaş universitetlərin müəyyənləşdirilməsi və müzakirələrin təşkili
- Təşkil edilən müzakirələr əsasında rəsmi sənədləşmənin aparılması

Bu inkişaf istiqaməti üzrə qiymətləndirmə göstəriciləri

- Ümumi proqramların sayı;
- İştirakçı olmuş tələbələrin sayı;
- Fakültə və ixtisasları əhatə etmə dairəsi.



4.2.2 Beynəlxalq mübadilə proqramlarının gücləndirilməsi

- Avropa Birliyinin Erasmus+ və Türkiyə Respublikasının Mövlanə mübadilə proqramları çərçivəsində təşkil edilmiş fəaliyyətin səmərəlilik prinsipi əsasında gücləndirilməsi;
- Adıkeçən proqramlar çərçivəsində tərəfdaşlıqların artırılması;
- ATMU-da mövcud olan ixtisaslar üzrə əhatə dairəsinin genişləndirilməsi;
- Mübadilə proqramlarının tələbə və müəllim dəyişimi istiqamətində təşkil edilməsi;
- Tərəfdaş universitetlər ilə əməkdaşlıqda davamlılığın qorunması;
- Mübadilə proqramları çərçivəsində qəbul edən tərəf olaraq tərəfdaş universitet tələbələrinin ATMU-da təhsilini təkmilləşdirmək

Bu inkişaf istiqaməti üzrə fəaliyyətin təşkili və təmini

- ATMU – nun prioritet tədris istiqamətləri əsasında tərəfdaş universitetlərin müəyyənləşdirilməsi və müzakirələrin təşkili;
- Birgə razılıq əsasında rəsmi sənədlərin hazırlanması və imzalanması;
- Tələbələr üçün məlumatlandırılma və təşviqat fəaliyyətinin təşkili;
- Proqramlarda iştirak hüququ qazanmış tələbələrin tərəfdaş universitetlərdə təhsilinin təşkili.

Bu inkişaf istiqaməti üzrə qiymətləndirmə göstəriciləri

- İştirak etmiş tələbə sayı tərəfdaşlıqların sayı;
- Tərəfdaş universitetlər ilə davamlı əməkdaşlıqların sayı ;
- Proqramlar çərçivəsində iştirakçı olmuş müəllimlərin sayı;
- Proqramlarda iştirakçı olmuş tələbə və müəllim heyətinin şəxsi bilik və bacarıqlarının inkişaf səviyyəsi və mübadilə proqramında sonrakı fəaliyyət dövrünə təsiri.

4.2.3 Əcnəbi tələbə qəbulunun təkmilləşdirilməsi və gücləndirilməsi

- Yenilənmiş Əsasnamə əsasında fəaliyyətin təşkili;
- Əcnəbi tələbə qəbulunun müəyyənləşdirilmiş bazar hədəfləri istiqamətində qurulması (Mərkəzi Asiya, Yaxın Şərq, Pakistan və Çin bazarları istiqamətində);
- Əcnəbi tələbələrin ATMU-ya qəbulu ilə bağlı olaraq əlçatanlılığın təşkili (təhsil sərgilərində iştirak, veb sayt vasitəsi ilə məlumatlandırma və s.);
- Əcnəbi tələbələrin ATMU-ya qəbulunun bütün təhsil pillələri üzrə təşkilinin gücləndirilməsi;
- Əcnəbi tələbə qəbulunun daha çox ixtisası əhatə etməsi.

Bu inkişaf istiqaməti üzrə fəaliyyətin təşkili və təmini

- Beynəlxalq təhsil şirkətləri ilə müzakirələr və görüşlərin təşkili (əsasən onlayn);
- Beynəlxalq təhsil sərgilərində iştirak;
- Əcnəbi tələbələr tərəfindən ünvanlanmş fərdi formalı müraciətlər əsasında işlərin təşkili;
- Ölkəmizin xaricdəki müvafiq səfirlikləri ilə bu istiqamətdə birgə fəaliyyətin təşkili.

Bu inkişaf istiqaməti üzrə qiymətləndirmə göstəriciləri

- Əcnəbi tələbələrin qəbul və məzun sayı;
- Öncədən müəyyənləşdirilmiş hədəf bazarlar üzrə tələbə sayı;
- Müvafiq təhsil pillələri üzrə tələbə sayı;
- Əcnəbi tələbə qəbulunun ATMU beynəlmilləlləşməsi və mədəniyyətlərarası əlaqələrə müsbət təsiri.

4.2.4 Xaricdə istehsalat təcrübəsinin təkmilləşdirilməsi

- Mövcud əməkdaşlıların gücləndirilməsi və davamlılığın təşkili;
- Yeni əməkdaşlıqların təşkil edilməsi (önəmli turizm destinasiyaları üzrə);
- Beynəlxalq təcrübənin tətbiqi vasitəsi ilə səmərəlilik prinsipi əsasında aparılması;

Bu inkişaf istiqaməti üzrə fəaliyyətin təşkili və təmini

- Xaricdə istehsalat təcrübəsi ilə bağlı tərəfdaş təşkilatların müəyyənləşdirilməsi;
- Müəyyən edilmiş tərəfdaş təşkilat və şirkətlər ilə müzakirələrin təşkili
- Müzakirələr nəticəsində təsdiqlənən əməkdaşlıqlar üzrə rəsmi sənədləşmələrin aparılması

Bu inkişaf istiqaməti üzrə qiymətləndirmə göstəriciləri

- İstehsalat proqramlarında iştirakçı olmuş tələbə sayı;
- Xaricdə istehsalat təcrübəsi yerlərinin sayı;
- Xaricdə istehsalat təcrübəsi nəticələrinin ATMU daxili tədris prosesinə təsiri və ölkə daxili təcrübə ilə müqayisəli təhlil

4.2.5 Beynəlxalq akademik heyət və tədqiqatçılar ilə əməkdaşlığın təşkili

- Mübadilə proqramları çərçivəsində beynəlxalq akademik heyət üzvlərinin cəlb edilməsi;
- İkitərəfli əməkdaşlıq müqavilələri çərçivəsində beynəlxalq akademik heyət üzvlərinin cəlb edilməsi;
- Beynəlxalq akademik heyət üzvlərinin tədqiqatçı olaraq birgə yerli və beynəlxalq layihələrə cəlb edilməsi;
- Beynəlxalq tədqiqatçılar və akademik heyət üzvlərin ATMU-da fəaliyyətə və təlim tədris prosesinə cəlb olunması.

Bu inkişaf istiqaməti üzrə fəaliyyətin təşkili və təmini

- Mübadilə proqramları çərçivəsində beynəlxalq akademik heyət üzvlərinin ATMU–ya dəvət olunması (müqavilələrin mövcud olduğu tərəfdaş universitetlər ilə birgə razılıq əsasında);
- İkitərəfli əməkdaşlıq müqavilələri çərçivəsində beynəlxalq akademik heyət üzvlərinin ATMU – ya dəvət olunması (tərəfdaş universitetlər və dəvət olunan şəxslər ilə birgə aparılan müzakirələr əsasında);
- Beynəlxalq əlaqələr istiqamətində mövcud olan imkanlar daxilində beynəlxalq tədqiqatçılar ilə əlaqələrin qurulması, əməkdaşlığın məzmunun müəyyənləşdirilməsi və fəaliyyətə başlanılması.

Bu inkişaf istiqaməti üzrə qiymətləndirmə göstəriciləri

- İştirak etmiş beynəlxalq akademik heyət üzvlərinin sayı;
- Cəlb olunmuş beynəlxalq tədqiqatçıların sayı.

4.2.6 Beynəlxalq təşkilatlar ilə əməkdaşlıq

- Beynəlxalq turizm və təhsil təşkilatları ilə əməkdaşlıq;
- Müvafiq istiqamətli beynəlxalq təşkilatlar ilə əməkdaşlığın müzakirəsi;
- Beynəlxalq turizm və təhsil təşkilatlarına üzvlük proseduru ilə bağlı rəsmi sənədləşmənin aparılması;
- Beynəlxalq təşkilatlar ilə əməkdaşlıq istiqamətlərinin müəyyənləşdirilməsi;
- Beynəlxalq əməkdaşlıqların icrasının təmin edilməsi.

Bu inkişaf istiqaməti üzrə fəaliyyətin təşkili və təmini

- Universitet fəaliyyət profilinə uyğun olaraq beynəlxalq təşkilatların müəyyənləşdirilməsi və mümkün əməkdaşlıq imkanlarının müzakirəsi;
- Beynəlxalq təşkilatlar ilə tərəfdaşlıq çərçivəsində rəsmi sənədləşdirmələrin aparılması;
- Beynəlxalq təşkilatlar ilə əməkdaşlıq çərçivəsində mümkün resursların (insan, maliyyə və s.) ayrılması və nəzarəti.

Bu inkişaf istiqaməti üzrə qiymətləndirmə göstəriciləri

- Beynəlxalq təşkilatlar tərəfindən keçirilən tədbir və görüşlərdə faydalılıq əmsalının yüksək olması;
- Beynəlxalq təşkilatlar tərəfindən məsləhətlərin ATMU-nun beynəlmiləlləşmə istiqamətindəki fəaliyyətində tətbiqi.

4.2.7 Beynəlxalq reytinqlərdə təmsilolunma

- ATMU-nun “Quacquarelli Symonds” (QS) beynəlxalq reytinq sistemində fəaliyyətin tənzimlənməsi və təmsil olunması;
- ATMU-nun “Times Higher Education” (THE) İmpakt reytinq sistemində fəaliyyətin tənzimlənməsi və təmsil olunması;
- QS Subject reytinq göstəriciləri istiqamətində “Qonaqpərvərlik” sahəsi üzrə unviersitetlərin təmsilolunma sırasında yer alması;
- THE impakt reytinq göstəriciləri istiqamətdə 3+1 davamlı inkişaf məqsədləri üzrə universitetlərin təmsilolunma sırasında yer alması.

Bu inkişaf istiqaməti üzrə fəaliyyətin təşkili və təmini

- Beynəlxalq reytinq sıralarında yer tutmaq üçün hədəflərin müəyyənləşməsi;
- Reytinqlər üzrə fəaliyyət planlarının hazırlanması;
- Reytinq göstəricilərinin tələbinə uyğun olaraq ATMU profilinin yaradılması və zəruri statistik göstəricilərin daxil edilməsi;
- Reytinqlər üzrə işçi komandanın formalaşdırılması və iş strukturunun tənzimlənməsi

Bu inkişaf istiqaməti üzrə qiymətləndirmə göstəriciləri

- Hər iki beynəlxalq reytinq sıralarında yer almaq;
- Növbəti reytinq göstəriciləri üzrə fəaliyyətin təkmilləşdirilməsi istiqamətdə təkmilləşmək

5. Beynəlmiləlləşmə siyasətinin icrası üçün ayrılmış resurslar



İnsan Resursları



Maliyyə resursları



İnfrastruktur resursları

5. Beynəlmiləlləşmə siyasətinin icrası üçün ayrılmış resurslar

5.1 İnsan Resursları

- Beynəlmiləlləşmə siyasətinin icrası üzrə əsas insan resursu Beynəlxalq Əlaqələr şöbəsinin əməkdaşları;
- Fəaliyyətin icrası üzrə müvafiq strukturlarla əməkdaşlıq;
- Akademik heyət üzvləri ilə tədris istiqamətində fəaliyyətin tənzimlənməsi;
- Xaricdə istehsalat təcrübəsinin keçirilməsi ilə bağlı Karyera və Kommunikasiya şöbəsi ilə əməkdaşlıq;
- Monitorinq və qiymətləndirilmə göstəriciləri ilə bağlı Keyfiyyət Təminatı şöbəsi ilə əməkdaşlıq;
- Maliyyə resursları ilə bağlı Maliyyə-plan şöbəsi ilə əməkdaşlıq;
- Ezamiyyələr zamanı prosesin icrası ilə bağlı İnsan Resursları şöbəsi ilə əməkdaşlıq;
- Beynəlxalq tədqiqatçıların fəaliyyətinin tənzimlənməsi ilə bağlı Elm və İnnovasiya şöbəsi ilə əməkdaşlıq;
- Mübadilə, ikili diplom layihələrinin həyata keçirilməsində Tədris metodiki şöbə, müvafiq fakültə və kafedralar ilə əməkdaşlıq;
- Poçt, məktub və müvafiq işin icrasına dair kargüzarlıq ilə bağlı Ümumi şöbə ilə əməkdaşlıq;
- Elanlar, pres-relizlər və sosial mediada yayınlamaların edilməsi ilə bağlı Rektorluq və İnformasiya Texnologiları şöbəsi ilə əməkdaşlıq.





5.2 Maliyyə resursları

ATMU maliyyə vəsaiti hesabına

- Beynəlxalq və yerli işgüzar səfərlər zamanı akademik və inzibati heyət üzrə ezamiyyə xərcləri;
- Beynəlxalq və yerli təşkilatlara üzvlük haqqları üzrə maliyyə xərcləri;
- Yerli və beynəlxalq sərgilərin təşkili zamanı maliyyə xərcləri;
- Beynəlxalq konfranslar, tədbirlərin təşkil olunması üzrə maliyyə xərcləri;
- Beynəlxalq konfraslar, tədbirlər zamanı dəvət olunan nümayəndələrin müvafiq maliyyə xərcləri;
- Dəvət yeməkləri təşkil olunarkən müvafiq maliyyə xərcləri.

Avropa Birliyi maliyyə vəsaiti hesabına

- Akademik və inzibati heyət üzrə günlük ezamiyyə və nəqliyyat xərcləri;
- Mübadilə tələbələrinə təqaüd və nəqliyyat xərcləri;
- Beynəlxalq layihələr zamanı səfər və işçi heyəti üzrə maliyyə xərcləri;

Tərəfdaş təşkilat və qurumların maliyyə vəsaiti hesabına

- Yerli və beynəlxalq təşkilatlar tərəfindən təşkil olunan konfranslar və tədbirlərdə maliyyə xərcləri;
- Müxtəlif beynəlxalq mübadilə proqramları (Mevlanə, DAAD və s.) çərçivəsində maliyyə xərcləri;



Co-funded by
the European Union

5.3 İnfrastruktur resursları

- AATP proqramı üzrə 2 mühazirə otağında təchizat təminati;
- Görüşlərin ATMU-da təşkil olunması üzrə iclas otağının təchizat təminati;
- Əcnəbi və vətəndaşlığı olmayan şəxslərin yataqxana xidmətlərindən yararlanma imkanı;
- Gələn əcnəbi qonaqların gecələmə imkanları üzrə təşkilati işlər;
- Mübadilə tələbələrinin tədris prosesinə inteqrasiya imkanları;
- Tədbirlərin keçirilməsi üzrə akt zalının mövcudluğu.





6. Beynəlmiləlləşmə siyasətinin icrasına ehtiyacəsaslı təkmilləşdirmə və dövrü yenilənmə

6.1 Beynəlmiləlləşmə fəaliyyətinin icrasının təkmilləşdirilməsi

- Fəaliyyətin icrası zamanı qarşılaşılan problemlərin qeyd olunması;
- Məsələlər üzrə hədəflərin yenilənməsi və təkmilləşdirilməsi istiqamətində yol xəritəsinin təyin olunması;
- Müvafiq və yeni hədəflər üzrə fəaliyyət göstərən insan resurlarının gücləndirilməsi;
- Məqsədəuyğun fəaliyyətin icrasına dair əlavə maliyyə vəsaitinin ayrılması;

6.2 Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi

- Beynəlmiləlləşmə siyasətinin icrası təqvim ili üzrə aparılır;
- Beynəlmiləlləşmə siyasətinin hesabatlılığı hər təqvim ilinin son həftəsində təqdim olunur.

7. Beynəlmiləlləşmə siyasətinin icrasına monitorinq və nəticələrin qiymətləndirilməsi

7.1 Beynəlmiləlləşmə fəaliyyətinin icrasının monitorinqi və qiymətləndirilməsi

- Universitetin Elmi Şurası qarşısında hesabatlılq;
- illik iş planlarının tərtibi və nəticə yönümlü hesabatlılıq;
- Rüblük hesabatlar;
- Dövlət Turizm Agentliyinə təqdim edilən hesabatlar;

7.2 Beynəlmiləlləşmə fəaliyyətinin icrasında performansın ölçülməsi

- Ehtiyacəsaslı indikatorların təyin olunması ilə əlaqədar sorğu anketlərin, rəylərin dəyərləndirilməsi;
- Təkmilləşdirilmənin aparılması istiqamətində fəaliyyət planının icrasına dair dinamikanın aktivlik göstəricilərinin təyin olunması;
- Beynəlmiləlləşmə siyasəti və ATMU Strategiyasında beynəlmiləlləşmə istiqaməti üzrə müəyyənləşdirilmiş hədəflər ilə bağlı rüblük və illik hesabatların verilməsi.



BİZİMLƏ ƏLAQƏ

Sizi maraqlandıran istənilən sualla bağlı müraciət edə bilərsiniz

Ünvan: Koroğlu Rəhimov küçəsi 822/23
Tel: +994 12 564 42 33 (Daxili nömrə 122)
Email: international@atmu.edu.az
Poçt indeksi: AZ1072